Azərbaycan Respublikası Prezidentinin
2018-ci il 24 avqust tarixli
Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya

## 1. Qısa xülasə

“Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya” (bundan sonra – Strategiya) “Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanına müvafiq olaraq hazırlanmışdır. Bununla yanaşı, beynəlxalq maliyyə institutları ilə mütəmadi əməkdaşlıq və qarşılıqlı fəaliyyət çərçivəsində ölkəmizdə dövlət maliyyəsinin idarə olunmasının keyfiyyətcə yeni mərhələyə keçməsi, büdcə prosesi (büdcənin tərtibi, təsdiqi, icrası və icrasına nəzarət) ilə bağlı normativ hüquqi bazanın, büdcəni idarəetmə mexanizminin daha da təkmilləşdirilməsi, orta və uzunmüddətli makroiqtisadi dayanıqlığı, maliyyə və borc intizamını təmin edən büdcə siyasətinin həyata keçirilməsi, habelə əhalinin büdcə prosesinə dair məlumatlılığının genişləndirilməsi istiqamətində islahatların davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nə əsasən ortamüddətli xərclər çərçivəsinin, habelə nəticəəsaslı büdcə mexanizminin formalaşdırılması, yeni fiskal qaydalarla bağlı təkliflərin və dövlət borcunun idarə edilməsinə dair Strategiyanın hazırlanması təmin edilmişdir.

Bu Strategiya qlobal iqtisadiyyatda və maliyyə bazarlarında baş verən proseslər fonunda ölkənin maliyyə dayanıqlığının daha da gücləndirilməsi, dövlət borcalmalarında səmərəliliyin artırılması, qarşıda duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla bu sahədə risklərin effektiv idarə edilməsi və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, habelə dövlətin maliyyə ehtiyaclarının ən az xərclə təmin edilməsi məqsədilə hazırlanmışdır.

Sənəd ortamüddətli və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək dövlət borcalmaları sahəsində yeni strategiya və tədbirlər planından, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan ibarətdir. Strategiyada müəyyən edilmiş hədəflərə nail olmaq üçün 3 strateji məqsədin və 5 prioritet tədbirin həyata keçirilməsi planlaşdırılır.

**Strategiyanın həyata keçirilməsi üçün müəyyən edilmiş hədəflər**

- Dayanıqlı və idarəolunan dövlət borcu səviyyəsi.
- Risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi.
- Dövlət borcalmaları üzrə infrastrukturun və nəzarət mexanizmlərinin gücləndirilməsi.

Bu Strategiya yalnız yeni borcalmalarla bağlı strategiyanı deyil, eyni zamanda, artıq cəlb edilmiş dövlət borcu, dövlət zəmanəti ilə alınmış borclar və dövlətə məxsus hüquqi şəxslər tərəfindən dövlət zəmanəti olmadan cəlb edilmiş kreditlərlə bağlı mövcud vəziyyətin

təhlilini, gözlənilən riskləri, görüləcək tədbirləri əhatə edir.

Strategiyanın əsas məqsədi dövlət borcunun dayanıqlığını təmin etmək üçün tələb olunan tədbirləri müəyyən etmək, bu tədbirlərə müvafiq siyasət çərçivəsini formalaşdırmaq və bütün aidiyyəti tərəfləri bu barədə müvafiq qaydada məlumatlandırmaqdır. Buna görə də Strategiya Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq olunmuş strateji yol xəritələrində qeyd olunan əsas hədəflərin, eləcə də "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan büdcə qaydasının tələblərinə uyğunlaşdırılmaqla hazırlanmışdır.

Strategiyada dövlət borcu ilə bağlı mühüm faktorlar, o cümlədən makroiqtisadi və fiskal çərçivə ilə borc dayanıqlığı çərçivəsinin uzlaşdırılması, yerli təkrar maliyyə bazarlarının inkişafı, infrastrukturun möhkəmləndirilməsi və s. məsələlər öz əksini tapmışdır.

2018–2025-ci illəri əhatə edən bu Strategiya qlobal miqyasda formalaşmış yeni makroiqtisadi və geosiyasi çağırışlar fonunda Azərbaycan Respublikasının dövlət borcunun idarəolunan çərçivədə saxlanılmasına və dövlət borcalmalarının əsas prinsip və istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edir.

Strategiyada aparılmış təhlillərdə istinad edilən məlumat və göstəricilər aidiyyəti üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Maliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Mərkəzi Bankının, Maliyyə Bazarlarına Nəzarət Palatasının, Dövlət Neft Fondunun, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının və digər təsisatların rəsmi məlumat mənbələrindən əldə edilmişdir.

Sənəddə qeyd olunan hədəflərin 2020-ci ildən etibarən hər 2 ildən bir yenidən qiymətləndirilməsi həyata keçiriləcəkdir.

## 2. Mövcud vəziyyətin təhlili

Ötən dövr ərzində effektiv maliyyə sisteminin formalaşması və institusional inkişafı məqsədilə davamlı islahatlar aparılmış, dövlət borcu sahəsində sistemliliyin təmin edilməsi istiqamətində tədbirlər görülmüşdür. Dövlət borcları ilə bağlı normativ hüquqi bazanın hazırlanması və onun beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində işlər daim diqqət mərkəzində saxlanılmışdır.

2014-cü ilin ikinci yarısından başlayaraq dünya bazarında neftin qiymətinin ucuzlaşması və əsas ticarət tərəfdaşlarında iqtisadi tənəzzül meyillərinin dərinləşməsi Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməmişdir. Tədiyə balansının tarazlaşdırılması məqsədilə Mərkəzi Bank tərəfindən 2015-ci ilin dekabr ayında tənzimlənən üzən məzənnə rejiminə keçid təmin olunmuş və milli valyuta ABŞ dollarına nisbətdə ucuzlaşmışdır. Tədiyə balansında və iqtisadi aktivlikdə müşahidə edilən geriləmələr, habelə maliyyə sabitliyinin

zəifləməsi borc dayanıqlığı sferasında bir sıra risklər yaratmış, borc məbləğinin manat ekvivalenti və bununla da borcun ÜDM-ə nisbəti artmış, milli valyutanın ucuzlaşması fonunda 2015–2016-cı illərdə ölkə iqtisadiyyatının nisbətən daralması və cəlb edilmiş xarici borclara xidmət xərclərinin artması dövlət büdcəsi üzərində əlavə təzyiqə gətirib çıxarmışdır.

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin sağlamlaşdırılması məqsədilə, bir tərəfdən, Cəmiyyətin qeyri-işlək aktivlərinin onun balansından çıxarılaraq "Aqrarkredit" Bank Olmayan Kredit Təşkilatına ötürülməsi və bununla əlaqədar dövlət zəmanətli qiymətli kağızların buraxılması, digər tərəfdən isə onun xarici öhdəliklərinin dövlətin üzərinə keçməsi, habelə ölkə üçün strateji əhəmiyyət kəsb edən sferalardan biri olan təbii qazın hasilatı və nəqli üzrə müəyyən edilmiş işlərin vaxtında yerinə yetirilməsini təmin etməkdən ötrü "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi, Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrində Cəmiyyətin payına düşən hissənin maliyyələşdirilməsi üçün bir sıra kredit qurumlarından dövlət zəmanəti ilə kredit vəsaitinin cəlb edilməsi borcun səviyyəsinin artmasına səbəb olmuşdur. Nəticə etibarilə, dövlət borcunun ÜDM-də xüsusi çəkisi və dövlət borcuna xidmət xərcləri artmışdır.

## 2.1. Makroiqtisadi çərçivə

Strategiya çərçivəsində dövlət borcunun dayanıqlığına təsir edə biləcək makroiqtisadi amillər nəzərə alınmaqla müvafiq təhlillər aparılmış, qısamüddətli və ortamüddətli dövr üzrə əsas makroiqtisadi göstəricilərə dair müxtəlif ehtimalların gözlənilən təsirləri qiymətləndirilmişdir.

### Makroiqtisadi təhlil

Ölkədə aparılmış dərin iqtisadi islahat tədbirləri nəticəsində ötən bir neçə il ərzində ölkə iqtisadiyyatındakı durğunluq aradan qalxmış, 2016-cı ildə ÜDM-in 3,1 faiz enməsinə baxmayaraq, 2017-ci ilin yekunları üzrə artım qeydə alınmışdır.

2015-ci ilin sonundan etibarən həyata keçirilən makroiqtisadi manevrlər və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatlar, eləcə də dünya bazarında neftin qiymətinin qismən yüksəlməsi Azərbaycanın tədiyə balansının möhkəmlənməsini təmin etmiş, həmçinin ölkədə fəaliyyət göstərən makroiqtisadi institutların sıx koordinasiyalı fəaliyyəti iqtisadiyyatın çevik tarazlaşmasını təmin edərək ölkənin makroiqtisadi dayanıqlığını gücləndirmişdir.

**Real sektor**

2017-ci ildə makroiqtisadi sabitliyin güclənməsi iqtisadi aktivliyin canlanmasına müsbət təsir etmiş, qeyri-neft sektorunda 2,7 faizlik iqtisadi artım (o cümlədən qeyri-neft sənayesində 3,7 faiz, kənd təsərrüfatında 4,2 faiz) qeydə alınmışdır. İqtisadi artım dövlətin investisiya xərclərinin və qeyri-neft ixracının artması, habelə istehlakçı inamının yüksəlməsi ilə dəstəklənmişdir. 2017-ci ildə son istehlak xərcləri 2016-cı illə müqayisədə real ifadədə 4,4 faiz bəndi artmışdır. Əhalinin nominal gəlirlərinin artımı istehlak tələbini dəstəkləyən əsas amil olmuşdur. Belə ki, 2017-ci il ərzində əhalinin pul gəlirləri nominal olaraq 8,3 faiz artmışdır.

2017-ci ildə investisiya qoyuluşu 2016-cı illə müqayisədə 2,6 faiz azalaraq, 15,6 milyard manat təşkil etmişdir ki, bunun da 37,8 faizi dövlət, 62,2 faizi isə özəl sektor tərəfindən yatırılmış investisiyalardan ibarətdir.

Son illər ərzində iqtisadiyyatın diversifikasiyası, biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun stimullaşdırılması, aqrar sektora dövlət dəstəyinin artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində aparılan iqtisadi islahat tədbirləri ölkədə real sektorun canlanması üçün ciddi zəmin yaratmışdır.

**Fiskal sektor**

2017-ci ildə Azərbaycan Respublikası dövlət büdcəsinin gəlirləri 16,52 milyard manat, xərcləri isə 17,6 milyard manat təşkil etmişdir. Dövlət büdcəsinin əsaslı xərcləri 2016-cı illə müqayisədə 20 faiz və ya 870,0 milyon manat artaraq 5,15 milyard manat olmuşdur. Əsaslı xərclərin tərkib hissəsi olan dövlət əsaslı vəsait qoyuluşu xərcləri isə 8 faizə yaxın artaraq 4,82 milyard manata çatmışdır. 2017-ci il üzrə dövlət büdcəsinin kəsiri 1,08 milyard manat təşkil etmişdir.

2018-ci il dövlət büdcəsinin gəlirləri 22,15 milyard manat, xərcləri isə 23,1 milyard manat səviyyəsində müəyyənləşdirilmişdir. Dövlət büdcəsinin kəsiri 951,0 milyon manat olmaqla, ÜDM-in 1,3 faizi səviyyəsində proqnozlaşdırılır.

**Maliyyə sektoru**

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanından irəli gələn tədbirlər ölkədə daxili maliyyə bazarlarının sürətli inkişafına münbit şərait yaratmaqdadır.

2017-ci il ərzində bank sektorunda aparılmış islahatlar nəticəsində ümumilikdə 900,0 milyon manat məbləğində kapital inyeksiyası həyata keçirilmiş və sektor üzrə yetərli kapitallaşma təmin edilmişdir. Ötən il ərzində kommersiya banklarının xarici borcu 71,8 faiz

azalaraq, cəmi 900,0 milyon ABŞ dolları ekvivalentində olmuşdur. Öhdəliklər strukturunda bankların xarici borcunun payı cəmi 6,5 faiz olmuşdur. Banklar tərəfindən cəlb edilmiş depozitlərdə de-dollarlaşma meyilləri güclənmişdir. Belə ki, 2017-ci ildə xarici valyutada əmanətlərin cəmi əmanətlərdə payı 80 faizdən 68 faizə enmişdir. De-dollarlaşma, həmçinin bankların kredit portfeli üzrə də qeydə alınmışdır. 2016-cı ildə xarici valyutada verilmiş kreditlər cəmi kreditlərin 48 faizini təşkil etdiyi halda, ötən il ərzində həmin göstərici 41 faizə enmişdir.

Hazırda qiymətli kağızlar bazarında, xüsusilə təkrar qiymətli kağızlar bazarında dövlət qiymətli kağızlarının aktivliyi artmaqdadır. 2017-ci ildə təkrar bazarın həcmi 2016-cı illə müqayisədə 47 faiz artmışdır ki, bu da, əsasən, korporativ qiymətli kağızlar bazarının 2,8 dəfə artması hesabına olmuşdur. Dövlət qiymətli kağızlar bazarı üzrə əməliyyatların həcmi isə ötən il ərzində 7,3 dəfə artaraq 6,1 milyard manat təşkil etmişdir. Artım, əsasən, Azərbaycan Respublikası Mərkəzi Bankının 5,2 milyard manat həcmində notları (86 faizi) hesabına mümkün olmuşdur.

**Makroiqtisadi göstəricilərin proqnozu**

**Cədvəl 1. 2017–2021-ci illər üzrə Azərbaycan Respublikasının əsas makroiqtisadi göstəriciləri**

| Göstəricilər | Ölçü vahidi | Faktiki | Proqnoz | | | |
|---|---|---|---|---|---|---|
| | | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
| ÜDM | *milyon manat* | 70 135,1 | 74 646,9 | 75 389,2 | 81 245,0 | 84 973,1 |
| Real artım tempi | *faiz* | 0,1 | 2,0 | 3,1 | 3,5 | 2,4 |
| İnflyasiya (İQİ, ortaillik) | *faiz* | 12,9 | 6,1 | 4,7 | 3,3 | 3,1 |
| Dövlət büdcəsinin gəlirləri | *milyon manat* | 16 516,7 | 22 149,0 | 18 790,7 | 19 128,5 | 18 471,3 |
| Dövlət büdcəsinin xərcləri | *milyon manat* | 17 594,5 | 23 100,0 | 18 919,7 | 19 257,0 | 18 600,3 |
| Büdcə kəsiri | *milyon manat* | -1 077,8 | -951,0 | -129,0 | -128,5 | -129,0 |
| İcmal büdcənin gəlirləri | *milyon manat* | 24 076,0 | 28 125,1 | 22 883,8 | 22 706,2 | 22 996,6 |
| İcmal büdcənin xərcləri | *milyon manat* | 25 183,0 | 26 575,3 | 23 046,1 | 22 416,0 | 20 589,4 |
| *O cümlədən xarici kreditlər hesabına maliyyələşən layihələr üzrə xərclər* | *milyon manat* | 1 106,0 | 1 362,1 | 1 432,4 | 1 120,6 | 29,8 |
| İcmal büdcənin kəsiri (artıqlığı) | *milyon manat* | -1 107,0 | 1 549,8 | -162,4 | 290,2 | 2 407,2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Cari hesab balansı | *milyon ABŞ dolları* | 1 684,6 | 1 430,4 | 2 331,8 | 4 204,5 | 5 453,3 |
| Cari hesab balansı/ÜDM | *faiz* | 4,1 | 3,3 | 5,3 | 8,9 | 11,0 |

Mənbə: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Mərkəzi Bankı.

Göründüyü kimi, 2018-ci ildə və ortamüddətli dövrdə iqtisadi artım üzrə pozitiv dinamikanın qorunacağı gözlənilir. Belə ki, yerli proqnozlarla yanaşı, bir sıra mötəbər beynəlxalq maliyyə təşkilatları, o cümlədən Dünya Bankı və Beynəlxalq Valyuta Fondu da Azərbaycan iqtisadiyyatında artım proqnozlaşdırır.

Ortamüddətli dövrdə inflyasiya göstəricilərinin azalması proqnozlaşdırılır ki, bu da öz növbəsində, uçot faiz dərəcəsinin endirilməsi və daraldıcı pul siyasətindən neytral pul siyasətinə tədrici keçid üçün zəmin yarada bilər. Beləliklə, dövlət borcunun idarə edilməsi ilə bağlı yerli bazarlardan maliyyə resurslarının cəlb edilməsi zamanı inflyasiya risk faktorunun aşağı olması ilə əlaqədar daha münasib faiz dərəcəsi formalaşar.

**Makroiqtisadi göstəricilərlə bağlı risklər**

Əsas makroiqtisadi göstəricilərin qiymətləndirilməsi zamanı bir sıra risklərin və kənarlaşmaların olma ehtimalı müşahidə edilir. Belə ki, enerji resurslarının qiymətlərində kəskin enmələr, eləcə də təbii resursların hasilatının azalması, inflyasiya artımı, habelə büdcə vəsaitinə tələbin gözlənilməz artımı ortamüddətli dövrdə fiskal dayanıqlıqda dalğalanmalara səbəb ola biləcək risklərdir.

Bununla yanaşı, iqtisadiyyatda mümkün geriləmələr nəticəsində büdcə gəlirlərinin azalması dövlət resursları üzərində təzyiqi artırmaqla, proqnozlaşdırılandan daha artıq həcmdə büdcə defisitinin yaranmasına səbəb ola bilər. Nəticədə dövlət sektorunun borc tələbləri, buna müvafiq olaraq borca xidmət xərcləri və ümumilikdə dövlət borclarının həcmi gözlənilmədən arta bilər.

Beynəlxalq maliyyə bazarlarında neftin qiymətinin aşağı düşməsi, iqtisadiyyatda struktur islahatlarının səngiməsi kimi risklər səbəbindən ixrac həcminin azalması cari əməliyyatlar hesabında nəzərəçarpacaq kəsir formalaşdıra bilər. Bu, ölkənin strateji valyuta ehtiyatları və milli valyutanın məzənnəsi üzərində təzyiqə səbəb olmaqla, qısa müddət ərzində idxalın bahalaşmasına və inflyasiyanın artmasına zəmin yarada bilər.

Bununla yanaşı, bir mənbədən irihəcmli borc cəlb edilməsində meydana çıxa biləcək risklərin qarşısının alınması məqsədilə dövlət borcu portfelinin strukturunun təkmilləşdirilməsi və borcların cəlbedilmə mənbələrinin optimal hədlərdə diversifikasiyası olduqca mühümdür.

Mövcud iqtisadi konyunkturda yuxarıda qeyd olunan makroiqtisadi risklərin reallaşması ehtimalı aşağı olsa da, həmin risklərin əsas makroiqtisadi gözləntilərdən kənarlaşmalara səbəb olma ehtimalı onların daim diqqət mərkəzində saxlanılmasını zəruri edir.

## 2.2. Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsi

Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsi Azərbaycan Respublikasının Konstitusiyasına, "Büdcə sistemi haqqında" və "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının qanunlarına, dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və digər qanunvericilik aktlarına uyğun olaraq həyata keçirilir.

Dövlət borcalmalarının həyata keçirilməsini təmin edən, vahid xəzinə hesabında olan vəsaitin qalığını (sərbəst qalıq) və dövlət büdcəsinin Təminat Fondunun vəsaitini idarə edən, dövlət qiymətli kağızlarının emissiyasını həyata keçirən, dövlət borcunun, dövlət zəmanətlərinin və xarici dövlətlərin Azərbaycan Respublikasına olan borcunun reyestrini aparan icra hakimiyyəti orqanı Azərbaycan Respublikası Maliyyə Nazirliyidir.

**Azərbaycan Respublikasının dövlət borcu aşağıdakı komponentlərdən ibarətdir:**

- hökumətin maliyyə-kredit institutlarından birbaşa cəlb etdiyi və dövlətin bilavasitə öhdəlikləri olan kreditlər;
- daxili və beynəlxalq maliyyə bazarlarında dövlət qiymətli kağızları və istiqrazlarının emissiyasından və yerləşdirilməsindən əldə olunan vəsait;
- dövlət borcu sayılan şərti öhdəliklər (dövlət zəmanəti ilə kredit vəsaiti cəlb etmiş icraçı təşkilatların öz üzərinə düşən öhdəlikləri yerinə yetirməməsi riskindən asılı olaraq, dövlət zəmanətli borc öhdəliklərinə xidmət xərclərinin 1 (bir) maliyyə ilinə düşən və ya risk-xərc təhlili əsasında müəyyən edilən hissəsi).

Ölkəmizdə dövlət maliyyəsinin idarə olunması təcrübəsinin keyfiyyətcə yeni mərhələyə keçməsi bütün sahələrdə islahatların aparılmasını, qeyri-neft iqtisadiyyatının inkişafına təkan verəcək tədbirlərin həyata keçirilməsini şərtləndirir. Son illərdə iqtisadiyyatın digər sahələrində olduğu kimi, dövlət maliyyəsinin idarə olunması sahəsində də əhəmiyyətli islahatlar aparılmış, o cümlədən dövlət və icmal büdcə xərclərinin daha şəffaf və çevik idarə olunmasına, dövlət büdcəsinin sərbəst vəsait qalığının idarə edilməsinə və ya idarəetməyə verilməsinə, gəlirlərin xarici valyutada olan hissəsinin konvertasiya edilmədən xərclənməsinə, birdəfəlik təyinatlı xərclər üzrə yaranmış qənaətdən istifadə edilməsinə, dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarla bağlı maliyyə əməliyyatlarının beynəlxalq mühasibat uçotu standartlarına uyğun aparılmasına nail

olunmuş, büdcə təşkilatlarının göstərdikləri iş və xidmətlərə görə əldə etdikləri büdcədənkənar vəsaitin, müvafiq olaraq, dövlət büdcəsinin və icmal büdcənin tərkibinə daxil edilməsi təmin edilmişdir.

Dövlət maliyyəsinin idarə edilməsi sahəsində bu kimi islahatların davam etdirilməsi məqsədilə aidiyyəti beynəlxalq təşkilatlarla əməkdaşlıq hazırda da davam etdirilməkdədir və beynəlxalq təcrübəyə əsaslanan yanaşma tətbiq olunur.

Azərbaycan Respublikasında dövlət büdcəsinin tərtibi, təsdiqi, icrası prosesləri, dövlət maliyyəsinin idarə olunması və hesabatlılıqla bağlı həyata keçirilən digər tədbirlər Dünya Bankı, Avropa İttifaqı və İqtisadi Məsələlər üzrə İsveçrə Dövlət Katibliyi (SECO) tərəfindən 2014-cü ildə Azərbaycanda uğurla başa çatdırılmış Dövlət Xərcləri və Maliyyə Hesabatlılığının (PEFA) qiymətləndirilməsi hesabatında da öz müsbət əksini tapmışdır. Belə ki, 31 göstəricidən 30-u üzrə aparılmış qiymətləndirmə nəticəsində 17 göstəricidə ciddi irəliləyiş əldə edilmiş, ümumilikdə isə 12 göstərici A, 6 göstərici B+, 1 göstərici B, 6 göstərici C+, 2 göstərici C, 1 göstərici D+, 2 göstərici D qiyməti almışdır.

Azərbaycan Respublikasında davamlı olaraq büdcə prosesinin beynəlxalq standartlara uyğun olaraq daha da təkmilləşdirilməsi, onun şəffaflığının, ünvanlılığının və ictimaiyyətə açıqlığının təmin edilməsi istiqamətində məqsədyönlü işlər aparılır.

## 3. Azərbaycan Respublikasının ümumi dövlət borcunun mövcud vəziyyəti

2018-ci il 1 yanvar tarixinə Azərbaycan Respublikası dövlət borcunun ümumi məbləği 17.007,4 milyon manat təşkil etmişdir. Məcmu dövlət borcunun 15.978,1 milyon manatı (9.398,3 milyon ABŞ dolları) və ya 93,9 faizi xarici, 1.029,3 milyon manatı və ya 6,1 faizi daxili dövlət borcunun payına düşür. Xarici dövlət borcunun ÜDM-ə nisbəti 22,8 faiz, daxili dövlət borcunun ÜDM-ə nisbəti 1,5 faiz olmaqla, ölkənin məcmu dövlət borcunun 2017-ci ildə ÜDM-ə nisbəti 24,3 faiz təşkil etmişdir. Məcmu dövlət borcunun ölkənin valyuta ehtiyatlarına nisbəti 23,8 faiz olmuşdur.

Xarici dövlət borcunun 3.331,4 milyon ABŞ dolları və ya 35,5 faizi xarici valyuta nominallı dövlət qiymətli kağızlarından, 5.510,4 milyon ABŞ dolları və ya 58,6 faizi hökumətin birbaşa cəlb etdiyi kreditlərdən, 556,5 milyon ABŞ dolları və ya 5,9 faizi isə xarici dövlət borcu hesab edilən şərti öhdəliklərdən ibarətdir.

**Xarici valyuta nominallı qiymətli kağızlar aşağıdakı elementlərdən formalaşmışdır:**

- 2014-cü ilin mart ayında ölkə tarixində ilk dəfə olaraq beynəlxalq maliyyə bazarlarında uğurla yerləşdirilmiş 1.250,0 milyon ABŞ dolları məbləğində xarici valyuta

nominallı dövlət qiymətli kağızları. Bu qiymətli kağızlar Azərbaycan Respublikasının beynəlxalq maliyyə bazarlarında bençmark rolunu ifadə edir;

- 2017-ci ilin sentyabr ayında "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin sağlamlaşdırılması tədbirləri çərçivəsində emissiyası həyata keçirilmiş 2.265,9 milyon ABŞ dolları məbləğində xarici valyutada denominasiya edilən dövlət istiqrazları. Bu emissiyanın tərkibinə 310,7 milyon ABŞ dolları məbləğində 12 il müddətli və 1.076,6 milyon ABŞ dolları məbləğində 15 il müddətli, hər biri 3 il ərzində amortizasiya olunan (son ödəniş ili, müvafiq olaraq, 2029-cu və 2032-ci il) uzunmüddətli qiymətli kağızlar daxildir. Bununla da, Bankın xarici kreditorlar qarşısında öhdəlikləri dövlət öhdəlikləri ilə əvəz edilmişdir. Sözügedən dövlət istiqrazları üzrə 184,5 milyon ABŞ dolları məbləğində borc məbləği 2017-ci ilin noyabr ayında ödənilmişdir.

Xarici dövlət borcunun 45,1 faizi hesabat dövründən sonra 10 ilə qədər olan müddətdə, 51,2 faizi 10 ildən 20 ilə qədər olan müddətdə, 3,7 faizi isə 20 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır. Dəyişkən faiz dərəcəsi ilə olan borc öhdəliyi xarici borc məbləğinin 52,8 faizini, sabit dərəcə ilə olan isə 47,2 faizini təşkil edir.

2018-ci il 1 yanvar tarixinə xarici dövlət borcunun və Dövlət Neft Fondunun aktivlərinin müqayisəli valyuta tərkibi aşağıdakı kimi olmuşdur:

**Cədvəl 2. Xarici dövlət borcunun və Dövlət Neft Fondunun aktivlərinin müqayisəli valyuta tərkibi**

*milyon ABŞ dolları ilə*

| S/s | Valyuta tərkibi | Borc məbləği | Borcun xüsusi çəkisi | ARDNF-in aktivləri | Aktivlərin xüsusi çəkisi |
|---|---|---|---|---|---|
| 1 | ABŞ dolları | 7 623,5 | 81,1% | 16 868,3 | 47,1% |
| 2 | Avro | 888,0 | 9,4% | 12 830,6 | 35,8% |
| 3 | Xüsusi Borcalma Hüququ | 570,4 | 6,1% | – | – |
| 4 | Yapon yeni | 209,3 | 2,2% | 522,9 | 1,5% |
| 5 | Digər | 107,2 | 1,1% | 5 584,7 | 15,6% |
| | **Cəmi** | **9 398,3** | | **35 806,5** | |

2018-ci il 1 yanvar tarixinə daxili dövlət borcunun 748,3 milyon manatını və ya 72,7 faizini dövlət istiqrazları, 52,7 milyon manatını və ya 5,1 faizini Mərkəzi Bank qarşısında öhdəliklər, 228,3 milyon manatını və ya 22,2 faizini isə daxili dövlət borcu sayılan şərti öhdəliklər təşkil etmişdir. Daxili dövlət borcu üzrə öhdəliklər tamamilə sabit faiz dərəcəsi ilə cəlb edilmişdir. Qeyd olunmalıdır ki, daxili dövlət borcu əvvəlki illərlə müqayisədə azalmışdır. Bunun əsas səbəbi Azərbaycan Respublikası hökuməti tərəfindən verilmiş dövlət

zəmanəti əsasında Azərbaycan Respublikası Mərkəzi Bankından ayrılmış kredit vəsaiti üzrə bir sıra dövlət müəssisələrinin borc öhdəliklərinin Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondu və Azərbaycan Respublikası Mərkəzi Bankının 2015-ci ilin maliyyə nəticələrinə görə reallaşdırılmış mənfəətinin dövlət büdcəsinə köçürülməli olan sərbəst qalığı hesabına bağlanaraq, həmin kreditlər üzrə tələb hüquqlarının Maliyyə Nazirliyinin üzərinə keçməsidir.

## 4. Xarici dövlət borcunun proqnozu

*4.1. Mövcud portfel üzrə*

Mövcud portfel üzrə xarici dövlət borcunun 2018-ci ildə nominal ifadədə artaraq 9,42 milyard ABŞ dolları olacağı proqnozlaşdırılır. Bu artımın əsas səbəbi əvvəlki illərdə imzalanmış kredit müqavilələri üzrə nəzərdə tutulan vəsaiti cari tarixə kreditor qurumların tam ayırmaması və bu istiqamətdə 2018-ci ildə istifadə olunacaq vəsaitin həmin öhdəliklər üzrə həyata keçiriləcək ödənişlərə nisbətən daha çox olmasıdır. Lakin mövcud (cəlb edilmiş) xarici dövlət borcunun 2019-cu ildə 9,0 milyard ABŞ dollarından 2025-ci ildə 3,8 milyard ABŞ dollarınadək azalacağı gözlənilir.

İmzalanmış mövcud kredit müqavilələri üzrə xarici dövlət borcuna xidmət xərclərində 2024-cü ilə nəzərdə tutulan kəskin artımın səbəbi 2014-cü ildə hökumət tərəfindən beynəlxalq maliyyə bazarlarında buraxılmış 1.250,0 milyon ABŞ dolları məbləğində xarici valyuta nominallı dövlət qiymətli kağızlarının 2024-cü ildə birdəfəlik ödənişlə geri qaytarılacağıdır.

*4.2. Yeni xarici borclar üzrə*

Son illərdə dünya bazarlarında neftin qiymətində yaranan qeyri-sabitlik və bu səbəbdən icmal büdcə gəlirlərinin azalması xarici valyutada əlavə borc öhdəliklərinin yaradılmasına xüsusi diqqətlə yanaşmanı zəruri edir. Buna görə də 2018-ci ildə və növbəti illərdə yalnız bir sıra prioritet hesab edilən layihələr üzrə birbaşa və dövlət zəmanəti əsasında kredit vəsaitinin cəlb edilməsi nəzərdə tutulur.

2018–2025-ci illərdə prioritet hesab edilən layihələr üzrə dövlətin həyata keçirəcəyi yeni birbaşa xarici dövlət borcalmaları aşağıdakı kimi proqnozlaşdırılır:

**Cədvəl 3. Birbaşa xarici dövlət borcu üzrə proqnozlaşdırılan yeni borcalmalar**

| Təsviri | Valyuta | Kreditin məbləği (milyon vahidlə) |
|---|---|---|
| **İslahat əsaslı kredit (PBL)–Asiya İnkişaf Bankı** | ABŞ dolları | 500,0 |
| **"Azərbaycan Dəmir Yolları" QSC-nin sağlamlaşdırılması və Bakı-Yalama dəmir yolu xəttinin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi–Asiya İnkişaf Bankı və Fransa İnkişaf Agentliyi** | ABŞ dolları | 325,0 |
| **Xarici valyuta nominallı dövlət qiymətli kağızlarının yenidən maliyyələşdirilməsi** | ABŞ dolları | 1.250,0 |

Qeyd olunan borcalmaların həyata keçiriləcəyi təqdirdə, xarici dövlət borcunun və bu borca xidmət xərclərinin dinamikası aşağıdakı kimi olacaqdır:

***Qrafik 1. Xarici dövlət borcunun 2016–2025-ci illər üzrə dinamikası***
*(yeni borcalmalar nəzərə alınmaqla)*



***Qrafik 2. Xarici dövlət borcuna xidmət xərclərinin 2016–2025-ci illər üzrə dinamikası***

*(yeni borcalmalar nəzərə alınmaqla)*




Göründüyü kimi, ölkə səviyyəsində prioritet hesab olunan layihələr maliyyələşdirildikdən sonra xarici dövlət borcunun ÜDM-ə nisbətinin 2019-cu ildə ən yuxarı həddə çataraq 23,0 faiz olacağı, lakin dinamikanın sonradan azalan tendensiya üzrə davam edəcəyi gözlənilir. Belə ki, növbəti illərdə xarici dövlət borcu üzrə geri qaytarılan öhdəliklərin cəlb olunan yeni borclardan çox olması ilə tədricən bu göstəricinin azalaraq 2021-ci ildə 19,5 faiz, 2025-ci ildə isə 12,0 faiz olacağı proqnozlaşdırılır. Qeyd olunan vəziyyətdə, xarici dövlət borcuna xidmət xərclərinin nisbətən artmasına baxmayaraq, illər üzrə xidmətin rəvan dinamikada həyata keçirilməsi təmin olunur və büdcə xərclərinin kəskin dəyişməsinin qarşısı alınır.

## 5. Daxili dövlət borcunun proqnozu

*5.1. Mövcud portfel üzrə*

Son illərdə ölkəmizdə qiymətli kağızlar bazarının, o cümlədən, daxili bazarın inkişafı istiqamətində bir sıra tədbirlər görülməkdədir. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 may tarixli 1504 nömrəli Sərəncamı ilə "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı təsdiq edilmişdir. Bu Dövlət Proqramının başlıca məqsədi müasir, beynəlxalq standartlara uyğun, iqtisadiyyata geniş kapitalizasiya imkanları yaradan və risklərin etibarlı idarə edilməsini

təmin edən, yüksək səmərə ilə fəaliyyət göstərən qiymətli kağızlar bazarının formalaşdırılmasıdır. Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi və daxili maliyyə bazarının inkişaf etdirilməsi məqsədilə hər il dövlət büdcəsi haqqında qanunda dövlət qiymətli kağızlarının emissiyası nəzərdə tutulur. Sözügedən istiqrazları investorlar bazar prinsipləri əsasında alırlar.

Mövcud daxili dövlət borcu üzrə dövlət istiqrazları və Azərbaycan Respublikasının Mərkəzi Bankı qarşısındakı öhdəliklərin 2023-cü ilədək tamamilə ödəniləcəyi nəzərdə tutulur.

*5.2. Yeni daxili borclar üzrə*

Qiymətli kağızların təşviqi istiqamətində Dünya Bankı ilə 2015-ci ildən sıx əməkdaşlıq edilir. Belə ki, "Dövlət Borcu və Risklərin İdarə Edilməsi Proqramı" (Government Debt and Risk Management Program) çərçivəsində Dünya Bankının iştirakı ilə Azərbaycanda daxili dövlət qiymətli kağızları bazarının diaqnostikası aparılmış, gələcəkdə gəlirlilik əyrisinin formalaşdırılması, habelə Azərbaycan Respublikasının dövlət borcunun idarə edilməsində dövlət qiymətli kağızları üzrə daxili bazarın inkişaf etdirilməsi və ilkin və təkrar bazarların gücləndirilməsi üçün fəaliyyət planının tərtib olunması istiqamətində tədbirlər görülmüşdür.

Hazırda qısamüddətli (1 illik) və ortamüddətli (2 və 3 illik) dövlət istiqrazları buraxılır. 2018–2025-ci illərdə hər il mövcud dövlət istiqrazları üzrə xidmət xərclərini ödəyəcək məbləğdə və əlavə olaraq 100,0 milyon manat məbləğində əlavə dövlət qiymətli kağızlarının buraxılması nəzərdə tutulur.

Qeyd olunan borcalmalar həyata keçirildikdən sonra daxili dövlət borcunun və borca xidmət xərclərinin dinamikası aşağıdakı kimi olacaqdır:

***Qrafik 3. Daxili dövlət borcunun 2016–2025-ci illər üzrə dinamikası***

*(yeni borcalmalar nəzərə alınmaqla)*




***Qrafik 4. Daxili dövlət borcuna xidmət xərclərinin 2016–2025-ci illər üzrə dinamikası***

*(yeni borcalmalar nəzərə alınmaqla)*



Göründüyü kimi, daxili bazarın inkişafını təmin etmək məqsədilə daxili dövlət borcunun illər üzrə tədricən artması proqnozlaşdırılsa da, bu borcun hər il emissiya ediləcək dövlət istiqrazları hesabına yenidən maliyyələşdirilməsi nəticəsində dövlət büdcəsi üzərinə ağır yük düşməyəcəkdir. Lakin bununla belə, məlum olduğu kimi, "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə məxsus problemli aktivlərin alınmasının və idarə edilməsinin maliyyələşdirilməsi üçün dövlət zəmanəti ilə ümumi həcminin yuxarı həddi təqribən 10,0 milyard manat olan istiqrazların buraxılışını həyata keçirmişdir və bu istiqrazlar üzrə əsas borc ödənişləri 2020-ci ildən etibarən başlayacaqdır. Strategiyada bu öhdəliklərə "Aqrarkredit" QSC tərəfindən xidmət ediləcəyi nəzərdə tutulmuşdur. Lakin Cəmiyyət borca xidmət xərclərini ödəməyəcəyi təqdirdə, zaminlik şərti əsasında öhdəliklərə dövlət büdcəsindən xidmət edilməsi fiskal yükün artmasına gətirib çıxara bilər.

## 6. Ümumi dövlət borcunun risk təhlili və proqnozu

### *6.1. Məzənnə riskinin təhlili*

Mövcud borc portfelində xarici valyutada olan öhdəliklərin xüsusi çəkisinin yüksək olmasının əsas səbəbi daxili maliyyə bazarının borcalma tələblərini ödəmək potensialının yoxluğu və üzv olduğumuz maliyyə-kredit qurumlarından inkişaf məqsədli kreditlərin cəlb olunmasıdır. Milli valyutanın məzənnəsində ola biləcək hər hansı dəyişiklik nəticəsində dövlət borcunun həcminin, həmçinin borca xidmət xərclərinin artması riski daim diqqət mərkəzində saxlanılmalıdır. Lakin Azərbaycan Respublikasının neft gəlirlərinin, həmçinin ehtiyat aktivlərinin əksəriyyətinin ABŞ dollarında olması valyutada öhdəlik–aktiv balansının saxlanıldığını və xarici valyuta riskinin aşağı olmasını deməyə əsas verir.

### *6.2. Faiz riskinin təhlili*

2017-ci ildə ABŞ Federal Ehtiyatlar Sistemi hədəf faiz dərəcələrini artırmağa davam etmişdir. Eləcə də, Birləşmiş Krallıqda inflyasiya dərəcəsinin hədəf göstəricisini üstələməsi nəticəsində İngiltərə Bankı faiz dərəcələrini 0,25 faizdən 0,5 faizə yüksəltmişdir. Avropa Mərkəzi Bankı isə faiz dərəcələrini 0 səviyyəsində saxlamaqdadır. Lakin müşahidə olunan iqtisadi artım səbəbindən növbəti dövrlərdə faiz dərəcələrinin artma ehtimalı nəzərə alınmalıdır.

Belə ki, faiz dərəcələrinin yüksəlməsi dəyişkən faiz dərəcələri ilə cəlb edilmiş kreditlər üzrə borca xidmət xərclərinin artması ilə nəticələnə bilər.

*6.3. Təkrar maliyyələşmə riskinin təhlili*

2017-ci ilin sonuna dövlət borcunun orta ödəniş müddəti (ATM) 6,1 il təşkil etmişdir ki, bu göstərici təkrar maliyyələşmə riski üzrə meyarlarla müqayisədə məqbul hesab oluna bilər.

*6.4. Əməliyyat riskinin təhlili*

Əməliyyat riski dedikdə dövlət borcalmalarının idarə edilməsi zamanı daxili proseslərdən, əməkdaşlardan və ya sistemlərdən asılı olaraq, yaxud kənar hadisələrin baş verməsindən yaranan risklər, o cümlədən texnoloji risk, təşkilati risk və sair kənar risklər nəzərdə tutulur. Belə ki, dövlət borclarının idarə edilməsi prosesində buraxılan bu cür nöqsanlar strategiyada müəyyən edilmiş hədəflərdən kənarlaşmalara, səhv proqnozlaşdırmalara səbəb olmaqla, dövlət borclarının dayanıqlığına mənfi təsir göstərə bilər.

*6.5. Ümumi dövlət borcunun proqnozu*

Bu Strategiyada qeyd olunan prioritet layihələrin maliyyələşdiriləcəyi, mövcud kreditlər üzrə borc öhdəliklərinin yenidən maliyyələşdirilməsi üçün yeni borcalmaların və daxili bazarda dövlət istiqrazlarının emissiyasının həyata keçiriləcəyi təqdirdə, ümumi dövlət borcunun və borca xidmət xərclərinin dinamikasının aşağıdakı kimi olacağı proqnozlaşdırılır:

***Qrafik 5. Ümumi dövlət borcunun 2016–2025-ci illər üzrə dinamikası***

*(yeni borcalmalar nəzərə alınmaqla)*



***Qrafik 6. Ümumi dövlət borcuna xidmət xərclərinin 2016–2025-ci illər üzrə dinamikası***

*(yeni borcalmalar nəzərə alınmaqla)*




Beləliklə, mövcud kreditlər üzrə nəzərdə tutulan vəsaitdən istifadə, eyni zamanda, prioritet layihələrin maliyyələşdirilməsi məqsədilə yeni borcalmalar 2019-cu ildə ümumi dövlət borcunun (cəmi xarici və daxili dövlət borcu) ÜDM-ə nisbətinin artaraq 24,7 faiz olmasına gətirib çıxarsa da, bu Strategiyada hədəfləndiyi kimi, əlavə borcalmaların həyata keçirilməməsi və dövlət borcuna xidmət xərclərinin cəlb olunacaq vəsaitdən çox olması ilə dövlət borcu portfelinin həcmi azalacaq və 2020-ci ildə 10,7 milyard ABŞ dollarından 2025-ci ildə 7,7 milyard ABŞ dollarına çatdırılması təmin ediləcəkdir.

## 7. Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın əsas məqsədləri

Qarşıdan gələn strateji dövrdə (2018–2025-ci illər) dövlət borcunun idarə olunması sahəsində əsas məqsəd gələcək illər üçün dövlət borcunun dayanıqlığını təmin etməklə ÜDM-ə nisbətinin tədricən azaldılmasına nail olmaqdır. Bu isə ortamüddətli dövrdə dövlət borclarının idarə edilməsinin strateji çərçivəsinin yaradılmasını, habelə xərc və risklərin müvafiq tarazlığı nəzərə alınaraq, ən optimal maliyyə alətlərinin seçilməsini tələb edir. Qeyd olunan strateji çərçivə daxili borcalmanı təkcə alternativ maliyyələşmə mənbəyi kimi deyil, eyni zamanda, daxili maliyyə bazarlarının inkişafı üçün zəruri alət kimi nəzərdə tutur.

**7.1. Strategiyanın əsas məqsədləri aşağıdakı qaydada ümumiləşdirilə bilər:**

**7.1.1. Strateji məqsəd 1:** Həm ortamüddətli, həm də uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının ehtiyaclarını nəzərə almaqla dövlət borcunun dayanıqlığını təmin etmək.

*Bu məqsədlə 2018-2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 30 faizdən çox olmaması və 2025-ci ilədək 20 faizdən aşağı salınması hədəfi gözləniləcəkdir. Eyni zamanda, ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbətinin 15 faizdən aşağı olması hədəflənir.*

**7.1.2. Strateji məqsəd 2:** Dövlətin digər mənbələrdən təmin oluna bilməyən maliyyə ehtiyaclarını ən az xərclə və aşağı risklərlə qarşılamaq.

*Bu istiqamətdə 2025-ci ilədək xarici valyuta riskinin idarə olunan səviyyədə saxlanılması məqsədilə xarici valyuta nominallı borc öhdəliklərinin 87 faizə qədər azaldılması (mövcud portfel üzrə göstərici 94,3 faiz) nəzərdə tutulur. Eyni zamanda, faiz dərəcəsi riskinin məqbul həddə saxlanılması üçün dəyişkən faiz dərəcəsi ilə cəlb olunan borcun ümumi portfeldə payının 56 faizi keçməməsi (mövcud portfel üzrə göstərici 49,7 faiz) hədəflənir.*

**7.1.3. Strateji məqsəd 3:** Yerli maliyyə bazarlarının inkişafının dəstəklənməsi**.**

*Bu istiqamətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birlikdə təkrar bazarın formalaşdırılması üçün zəruri tədbirlər həyata keçirilərək, emissiya prospektlərinin bazar tələbləri və investorların maraqları nəzərə alınmaqla hazırlanması təmin olunacaqdır.*

**7.2. Dövlət borcalmaları üzrə müəyyən olunan strateji məqsədlərə çatmaq üçün aşağıdakı prioritet tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:**

**7.2.1. Ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbətinin 15 faizdən aşağı olmasının təmin edilməsi.**

Qeyd olunan göstəricinin 2018-2025-ci illər ərzində 15 faizdən aşağı olacağı proqnozlaşdırılır. Lakin növbəti illərdə valyuta məzənnəsinin, faiz dərəcələrinin dəyişməsi ilə borca xidmət xərclərinin artması və ya ümumi dövlət büdcəsi xərclərinin azalması nəticəsində müəyyən edilmiş göstərici 15 faizdən yuxarı olarsa, bu fərqin maliyyələşdirilməsi məqsədilə daxili maliyyə bazarlarında dövlət qiymətli kağızlarının buraxılması nəzərdə tutulur. Belə olacağı təqdirdə, qeyd olunan dövrdə əlavə daxili borcların cəlb olunması planlaşdırılır ki, bu borcalmalar da əsasən 3-5 illik dövlət qiymətli kağızlarının emissiyası vasitəsilə həyata keçiriləcəkdir.

**7.2.2. Bu Strategiyada nəzərdə tutulan borcalmalar həyata keçiriləcəyi zaman 2018–2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 30 faizdən çox olmaması və 2025-ci iledək 20 faizə çatdırılması.**

Ümumi dövlət borcunun ÜDM-ə nisbətinin 2019-cu ildə ən yuxarı həddə çataraq 24,7 faiz olacağı gözlənilir. Lakin növbəti illərdə dövlət borcu üzrə geri qaytarılan öhdəliklərin cəlb olunan yeni borclardan çox olması nəticəsində bu göstəricinin tədricən azalaraq 2021-ci ildə 21,7 faiz, 2025-ci ildə isə 15 faizdən aşağı olacağı proqnozlaşdırılır. Qeyd edilən hədəflərin qiymətləndirilməsi hər 2 ildən bir yeni strategiyanın hazırlanması çərçivəsində həyata keçiriləcəkdir.

**7.2.3. Bu Strategiyada qeyd olunan layihələrdən başqa digər layihələrin maliyyələşdirilməsi üçün borc vəsaitinin cəlb olunmaması və dövlət zəmanətinin təmin edilməməsi.**

Son illərdə dünya bazarlarında neftin qiymətində yaranan qeyri-sabitlik və bu səbəbdən icmal büdcənin gəlirlərinin azalması xarici valyutada əlavə borc öhdəliklərinin yaradılmasına xüsusi diqqətlə yanaşmanı zəruri etdiyindən, 2018–2025-ci illər ərzində birbaşa və ya dövlət zəmanəti ilə cəlb ediləcək kreditlər hesabına maliyyələşdiriləcək prioritet layihələrin siyahısı müəyyən edilmişdir (cədvəl 3 və cədvəl 4). Bu layihələrdən başqa birbaşa kreditlərin, habelə dövlət müəssisələrinə Strategiyada nəzərdə tutulan dövlət zəmanətli kreditlərdən əlavə dövlət zəmanəti ilə vəsait cəlb olunması dayandırılacaqdır.

**7.2.4. Faiz dərəcələrinin artma riskinin rüblük əsasda qiymətləndirilməsi və sözügedən qiymətləndirmə əsasında yeni borcların münasib faiz şərtləri ilə cəlb olunması.**

Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması məqsədilə “Fitch”, “Moody's” və “Standard and Poor's” reytinq agentliklərinin mütəmadi sorğularına əsasən, aidiyyəti məlumatlar müvafiq qaydada onlara təqdim edilir və müəyyən dövlət orqanlarının rəhbərlikləri ilə görüşlər keçirilir. 2018-ci il 27 iyul tarixində ölkənin suveren reytinqini “Standard and Poor's” reytinq agentliyi “BB+”, “Fitch” reytinq agentliyi “BB+” və 2018-ci il 10 avqust tarixində “Moody's” reytinq agentliyi “Ba2” kimi təsdiqləmiş və hər üç reytinq agentliyi iqtisadi perspektivi “sabit” olaraq müəyyən etmişdir.

Qeyd olunan reytinq agentliklərinin müəyyən etdiyi «BB+» və «Ba2» kredit reytinqlərinin əldə olunması beynəlxalq maliyyə ictimaiyyətinin Azərbaycan Respublikasına

etimadının göstəricisi olmaqla yanaşı, hökumət və ölkəmizin iri şirkətləri tərəfindən beynəlxalq maliyyə bazarlarında borcalma məqsədilə qiymətli kağızların emissiyası üçün zəruri şərait yaradılmasına, dövlət zəmanəti ilə alınan kreditlərə görə ödənilən faiz dərəcələrinin və sığorta mükafatlarının azalmasına və beləliklə, respublikamızın beynəlxalq kapital bazarına çıxışının asanlaşmasına, birbaşa xarici investisiyaların həcminin artmasına, maliyyə resurslarının dəyərinin ucuzlaşmasına və beynəlxalq arenada onun nüfuzunun yüksəlməsinə imkan verir.

Bu baxımdan, yeni borcalmalar həyata keçiriləcəyi təqdirdə, maliyyə şərtləri ilə bağlı danışıqlar zamanı ölkənin suveren reytinqi və beynəlxalq bazarlarda mövcud bençmarklar nəzərə alınmaqla, daha əlverişli şərtlərlə kreditlərin cəlb olunması təmin ediləcəkdir.

Eyni zamanda, rüblük əsaslarla borc portfeli təhlil ediləcəkdir. Aparılan təhlillər nəticəsində daxili və xarici maliyyə bazarlarında cari vəziyyət nəzərə alınmaqla, mövcud borcların daha əlverişli maliyyə şərtləri əsasında borcların cəlb edilməsi yolu ilə yenidən maliyyələşdirilməsi həyata keçiriləcəkdir.

**7.2.5. Daxili bazarda dövlət qiymətli kağızlarının müddətinin mərhələli şəkildə uzadılması, təkrar bazarın formalaşdırılması istiqamətində iş aparılması və gələcəkdə daxili borcalmanın artırılmasına üstünlük verilməklə, xarici borcalmanın tədricən azaldılması.**

Növbəti illərdə daxili qiymətli kağızlar bazarının daha da inkişaf etdirilməsi, o cümlədən təkrar bazarın formalaşdırılması məqsədilə investorlarla mütəmadi görüşlərin keçirilməsi, bazar tələblərinin müəyyən olunması və bunlar əsasında emissiya prospektləri hazırlanarkən investorların maraqlarının nəzərə alınması kimi tədbirlərin Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birgə həyata keçirilməsi nəzərdə tutulur. Beləliklə, dövlət qiymətli kağızlarının müddətinin mərhələli şəkildə uzadılması və tədricən, tələb olunan maliyyələşmələrin daxili borcalmalar hesabına təmin edilməsi yolu ilə xarici borcalmaların əvəzlənməsi hədəflənir.

Yuxarıdakı tədbirlərin icrası və heç bir əlavə borcalma həyata keçirilməyəcəyi təqdirdə, əsas borca xidmət xərclərinin cəlb olunacaq borclardan daha çox olması nəticəsində borc yükünün ortamüddətli perspektivdə azalacağı proqnozlaşdırılır.

### 7.3. Dövlət zəmanəti ilə cəlb olunmuş kreditlər

Azərbaycan Respublikasında bir sıra investisiya və infrastruktur layihələrinin həyata keçirilməsi məqsədilə dövlət müəssisələri yerli və xarici maliyyə qurumlarından kreditləri dövlət zəmanəti əsasında cəlb edirlər. Bu kreditlərə hökumət zəmanəti ilə təmin edilən və

bilavasitə ayrı-ayrı təşkilatlar tərəfindən xidmət edilən kreditlər, habelə, bilavasitə hökumətə verilən, daha sonra icraçıya ötürülən və icraçı tərəfindən qaytarılan kreditlər daxildir. Bu kreditlər, əsasən, elektrik stansiyalarının tikintisi və bərpası, kiçik və orta sahibkarlığın dəstəklənməsi, aviasiya və dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, infrastrukturun prioritet hesab edilən sahələrinin bərpası, yenidən qurulması, inkişaf etdirilməsi və sair məqsədlərə sərf edilmişdir.

2018-ci il 1 yanvar tarixinə dövlət təşkilatlarının dövlət zəmanəti ilə cəlb olunmuş borclarının ümumi məbləği 21.561,4 milyon manat təşkil etmişdir. Dövlət zəmanəti ilə cəlb olunmuş məcmu borcun 9.849,2 milyon manatı (5.793,3 milyon ABŞ dolları) və ya 45,7 faizi xarici borcun, 11.712,2 milyon manatı və ya 54,3 faizi isə daxili dövlət zəmanəti ilə cəlb olunmuş borcun payına düşür.

Dövlət zəmanəti ilə cəlb olunmuş xarici borcun ÜDM-ə nisbəti 14,0 faiz təşkil edir. Hazırda mövcud olan dövlət zəmanəti ilə xaricdən cəlb olunmuş borc öhdəliklərinə, əsasən, “Cənub Qaz Dəhlizi” layihəsinin maliyyələşdirilməsi xərcləri (3.147,3 milyon ABŞ dolları), “Azərenerji” ASC (928,2 milyon ABŞ dolları), “Azərbaycan Dəmir Yolları” QSC (478,9 milyon ABŞ dolları), Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (460,6 milyon ABŞ dolları) və sair təşkilatların (778,3 milyon ABŞ dolları) xarici maliyyə mənbələrindən dövlət zəmanəti ilə cəlb etdikləri kreditlər daxildir.

Daxili dövlət zəmanətli borcun tərkibinə “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin sağlamlaşdırılması tədbirləri çərçivəsində bankın toksik aktivlərinin alınması üçün “Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən buraxılmış qiymətli kağızlara verilmiş dövlət zəmanəti (10.590,5 milyon manat), Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bir sıra qaz yataqlarında qazma işləri ilə əlaqədar həyata keçirdiyi layihələrin maliyyələşməsinə verilən dövlət zəmanəti (321,7 milyon manat) və bank-maliyyə sisteminə etibarın artırılması və qorunan bank əmanətlərinin vaxtında təmin edilə bilməsi məqsədilə maliyyə təminatının yaradılması üçün Əmanətlərin Sığortalanması Fondunun xeyrinə buraxılmış sadə veksel (800,0 milyon manat) üzrə borclar daxildir.

Dövlət zəmanəti ilə cəlb olunmuş daxili borcun ÜDM-ə nisbəti 16,7 faizdir.

2018–2025-ci illərdə prioritet hesab edilən layihələr üzrə dövlətin zəmanət verəcəyi xarici dövlət borcalmaları aşağıdakı kimi proqnozlaşdırılır:

**Cədvəl 4. Dövlət zəmanətli kreditlər üzrə proqnozlaşdırılan yeni borcalmalar**

| Təsviri | Borcalan təşkilat | Valyuta | Kreditin məbləği (milyon vahidlə) |
|---|---|---|---|
| **“Cənub Qaz Dəhlizi” layihəsi** | “Cənub Qaz Dəhlizi” QSC | ABŞ dolları | 2.250,0 |
| **“Stadler” şirkətindən 30 ədəd sərnişin vaqonunun alınması** | “Azərbaycan Dəmir Yolları” QSC | İsveçrə frankı | 134,8 |
| **“Azərikimya” İB-də rekonstruksiya işlərinin aparılması** | "Azərikimya" İB | ABŞ dolları | 350,0 |

Hazırda hər hansı layihə üzrə daxili borcalmalara dövlət zəmanəti verilməsi nəzərdə tutulmur.

Dövlət zəmanəti ilə cəlb edilən kreditlərə xidməti, əsasən, icraçı təşkilatlar həyata keçirməkdədir. Lakin hər hansı bir səbəbdən icraçı təşkilatların ödənişləri həyata keçirməyəcəyi təqdirdə, dövlət zəmanəti əsasında bu kreditlərə xidmət dövlət tərəfindən həyata keçirilməli olacaqdır. Dövlət zəmanəti ilə cəlb olunmuş borc öhdəliklərinə xidmətin bir çox dövlət müəssisəsinin öz fəaliyyəti hesabına həyata keçirilməsinə baxmayaraq, icraçı təşkilatların ödənişləri etməmə ehtimalını nəzərə alaraq, dövlət zəmanətli borc öhdəliklərinə xidmət xərclərinin 1 (bir) maliyyə ilinə düşən və ya risk-xərc təhlili əsasında müəyyən edilən hissəsi şərti öhdəliklər olaraq dövlət borcuna daxil edilir. Bununla belə, icraçı təşkilat (əsas borcalan) dövlət zəmanəti ilə təmin edilmiş borc öhdəliyini icra edə bilmədiyi və ya lazımınca icra edə bilmədiyi və defolt baş vermək təhlükəsi, yaxud öhdəliyin icrasının zəmanətçi tərəfindən yerinə yetirilməsi zərurəti yarandığı təqdirdə, dövlət zəmanətinin müddəalarına əsasən öhdəliyin yerinə yetirilməsi dövlət büdcəsinin tərkibində bu məqsədlə yaradılmış Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondunda toplanmış vəsait hesabına təmin edilir. Qeyd olunanları və 21.561,4 milyon manat məbləğində cəmi dövlət zəmanəti ilə cəlb olunmuş kredit həcmini nəzərə alaraq, gələcəkdə Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondunda saxlanılan ehtiyatların artırılmasına ehtiyac duyulur.

### 7.4. Dövlət zəmanəti olmadan dövlət müəssisələrinin bilavasitə cəlb etdikləri kreditlər

Hökumət tərəfindən bilavasitə və ya dövlət zəmanəti ilə cəlb edilmiş kreditlərlə yanaşı, bir sıra dövlət müəssisələri və təşkilatları bilavasitə, dövlət zəmanəti olmadan kreditlər də cəlb etmişlər. Dövlət zəmanəti olmadan bilavasitə dövlət müəssisələrinin cəlb etdikləri borc öhdəliklərinin əsas hissəsini Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin öhdəlikləri təşkil edir. Qeyd olunan borc öhdəlikləri dövlət üçün birbaşa risk təşkil etməsə də, dövlətin bu müəssisələrin təsisçisi olması səbəbindən gələcəkdə bu öhdəliklərin yerinə yetirilməsi üzrə yaranacaq problemlər dövlətin borcalma qabiliyyətinə mənfi təsir edə bilər.

Bu halın qarşısını almaq məqsədilə dövlət zəmanəti olmadan dövlət müəssisələrinin bilavasitə cəlb etdikləri kreditlərə nəzarət istiqamətində dövlət bir sıra addımlar atmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası" təsdiq edilmişdir. Bu Qayda paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan səhmdar cəmiyyəti, məhdud məsuliyyətli cəmiyyət və digər təşkilati-hüquqi formada fəaliyyət göstərən kommersiya hüquqi şəxslərinin, dövlətin yaratdığı qeyri-kommersiya hüquqi şəxslərinin və publik hüquqi şəxslərin, həmçinin qeyd edilən hüquqi şəxslərin yaratdığı paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə həmin hüquqi şəxslərə məxsus olan törəmə təsərrüfat cəmiyyəti, qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslərin dövlət zəmanəti olmadan yerli və xarici borcalmalarını tənzimləyir. Belə ki, sözügedən borcalmalar həyata keçirilməzdən əvvəl dövlətə məxsus olan hüquqi şəxslər borcalmanın zəruriliyini və məqsədəuyğunluğunu əsaslandırmaqla, dövlət borcunun idarə edilməsini həyata keçirən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə yazılı müraciət etməlidirlər. Yalnız müvafiq razılıq əldə olunduqdan sonra borcalma həyata keçirilə bilər. Eyni zamanda, il ərzində veriləcək razılıqlara nəzarətin həyata keçirilməsi üçün hüquqi şəxslərin növbəti il üçün təqdim edəcəkləri borcalma niyyətləri və borcalmanın ümumi məbləğləri əsasında il ərzində dövlətə məxsus olan hüquqi şəxslərin borcalmasının yuxarı həddi müəyyən olunur.

## 8. İnstitusional və funksional çərçivə üzrə strateji məqsədlər

8.1. Dövlət borcunun idarə edilməsi bir sıra normativ sənədlər, o cümlədən "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında tənzimlənir. Dövlət borcunun və risklərin idarə edilməsi tədbirləri çərçivəsində mövcud qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur. Bu istiqamətdə aşağıdakı tədbirlər həyata keçiriləcəkdir:

8.1.1. "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər edilməsi, o cümlədən:

1. müvafiq hüquqi aktların "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması;

2. bu Strategiyanın müntəzəm əsasda yenilənməsi üçün qanunvericilikdə müvafiq dəyişikliklər edilməsi;

3. dövlət borcunun idarə edilməsi və borcalma ilə bağlı məqsədlərin bu Strategiya ilə uyğunlaşdırılması.

8.1.2. dövlətə məxsus olan hüquqi şəxslərin dövlət zəmanəti olmadan cəlb edilən daxili və xarici borclarının uçotunu Azərbaycan Respublikası Maliyyə Nazirliyinin aparması istiqamətində tədbirlər görülməsi;

8.1.3. daxili institusional və maddi-texniki bazanın gücləndirilməsi istiqamətində tədbirlər görülməsi, o cümlədən:

1. dövlət borcunun idarə edilməsi üzrə İT sisteminin qısa müddətdə tətbiq edilməsi;

2. analitik işlər üzrə (xərc/risk təhlili, o cümlədən kredit risklərinin müəyyənləşdirilməsi) heyətin təyin olunması və inkişaf etdirilməsi;

3. dövlət borcunun idarə edilməsi sahəsində islahatların strukturlaşdırılması və icrasına dəstək məqsədilə treninqlərdə (capacity building) iştirak.

*"Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"ya əlavə*

**Cədvəl 1. Xarici dövlət borcunun proqnozu**

| İllər | Xarici dövlət borcunun məbləği (milyard ABŞ dolları) | Xarici dövlət borcunun ÜDM-ə nisbəti (%) |
|---|---|---|
| 2018 | 9,7 | 22,5 |
| 2019 | 10,1 | 23,0 |
| 2020 | 9,8 | 20,7 |
| 2021 | 9,2 | 19,5 |
| 2022 | 8,5 | 17,4 |
| 2023 | 7,8 | 15,5 |
| 2024 | 7,2 | 13,7 |
| 2025 | 6,5 | 12,0 |

**Cədvəl 2. Xarici dövlət borcuna xidmət xərclərinin proqnozu**

| İllər | Xarici dövlət borcuna xidmət xərclərinin məbləği (milyon ABŞ dolları) | Xarici dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti (%) |
|---|---|---|
| 2018 | 1.241,7 | 10,1 |
| 2019 | 1.234,5 | 11,1 |
| 2020 | 1.193,4 | 10,6 |
| 2021 | 1.229,5 | 11,3 |
| 2022 | 986,6 | 8,6 |
| 2023 | 930,2 | 7,7 |
| 2024 | 863,4 | 6,8 |
| 2025 | 820,3 | 6,2 |

**Cədvəl 3. Daxili dövlət borcunun proqnozu**

| İllər | Daxili dövlət borcunun məbləği (milyard manat) | Daxili dövlət borcunun ÜDM-ə nisbəti (%) |
|---|---|---|
| 2018 | 1,1 | 1,5 |
| 2019 | 1,3 | 1,8 |
| 2020 | 1,6 | 2,0 |
| 2021 | 1,8 | 2,3 |
| 2022 | 1,9 | 2,2 |
| 2023 | 1,9 | 2,2 |
| 2024 | 1,9 | 2,1 |
| 2025 | 2,0 | 2,1 |

**Cədvəl 4. Daxili dövlət borcuna xidmət xərclərinin proqnozu**

| İllər | Daxili dövlət borcuna xidmət xərclərinin məbləği (milyon manat) | Daxili dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti (%) |
|---|---|---|
| 2018 | 89,9 | 0,4 |
| 2019 | 99,9 | 0,5 |
| 2020 | 109,8 | 0,6 |
| 2021 | 113,7 | 0,6 |
| 2022 | 123,7 | 0,6 |
| 2023 | 126,8 | 0,6 |
| 2024 | 136,8 | 0,6 |
| 2025 | 146,8 | 0,6 |

**Cədvəl 5. Ümumi dövlət borcunun proqnozu**

| İllər | Ümumi dövlət borcunun məbləği (milyard ABŞ dolları) | Ümumi dövlət borcunun ÜDM-ə nisbəti (%) |
|---|---|---|
| 2018 | 10,4 | 23,9 |
| 2019 | 10,9 | 24,7 |
| 2020 | 10,7 | 22,7 |
| 2021 | 10,3 | 21,7 |
| 2022 | 9,6 | 19,6 |
| 2023 | 9,0 | 17,6 |
| 2024 | 8,3 | 15,8 |
| 2025 | 7,7 | 14,1 |

**Cədvəl 6. Ümumi dövlət borcuna xidmət xərclərinin proqnozu**

| İllər | Ümumi dövlət borcuna xidmət xərclərinin məbləği (milyon ABŞ dolları) | Ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti (%) |
|---|---|---|
| 2018 | 1.294,5 | 10,5 |
| 2019 | 1.293,2 | 11,6 |
| 2020 | 1.257,9 | 11,1 |
| 2021 | 1.296,3 | 11,9 |
| 2022 | 1.059,3 | 9,2 |
| 2023 | 1.004,7 | 8,3 |
| 2024 | 943,7 | 7,5 |
| 2025 | 906,5 | 6,8 |

Xalq qəzeti.- 2018.- 25 avqust.- S.6-8.